AZƏRBAYCAN RESPUBLİKASI
MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ

M.F.AXUNDOV adına
AZƏRBAYCAN MİLLİ KİTABXANASI

# ŞUŞA HƏSRƏTİ
(Metodik vəsait)

BAKI – 2007

**AZƏRBAYCAN RESPUBLİKASI**
**MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**

**M.F.AXUNDOV adına**
**AZƏRBAYCAN MİLLİ KİTABXANASI**

# ŞUŞA HƏSRƏTİ

*Respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik vəsait*

Mədəniyyət və Turizm Nazirliyi nəzdində Koordinasiya Şurasının 2007-ci il 8 may tarixli 3 nömrəli protokolu ilə çapa tövsiyə olunub

**BAKI – 2007**

*Tərtib edənlər:* *Nailə Alışova, Kitabxana siyasəti və metodik rəhbərlik şöbəsinin aparıcı elmi işçisi;*
*Adilə Abdullayeva, Kitabxana siyasəti və metodik rəhbərlik şöbəsinin kitabxanaçısı*

*Redaktor:* *Gülbəniz Səfərəliyeva, Xidmət işləri üzrə direktor müavini*

***Şuşa həsrəti: Metodik vəsait /Tərt. ed.: N. Alışova, A. Abdullayeva. - B., 2007.-39 s.***

**© M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2007**

# Şuşa



**Hal-hazırda rayonun ərazisi erməni silahlı dəstələri tərəfindən işğal olunub**
Ərazisi – 351,55 km²
Əhalisinin sayı – 25,720
İnzibati mərkəzi - Şuşa



## Kəndlər

Quşçular, Aşağı Quşçular, Xəlfəli, Dükanlar, Malıbəyli, Yuxarı Zamanpəyəsi, Şüşülü, Mirzələr, Qaybalı, Laçınlar, Şırlan Çaykənd, Paşalar, Məmişlər, Xanalılar, İmamqulular, Əmillər, Səfixanlar, Xanlıq-pəyə, Allahqulular, Böyük Qala dərəsi, Kiçik Qala dərəsi, Salatın kənd, Göytala, Onverst, Turşsu, Zarıslı, Nəbilər, Tuğ, Şüşükənd



Şuşanın dağları başı dumanlı,
Dərdindən ölməyə çoxdur gümanlı...

Ustad Xan Şuşinskinin yazdığı və oxuduğu bu mahnını eşidəndə istər-istəməz adamın ürəyinin başı göynəyir. Çünki əsası Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulan Şuşanın başını doğrudan da dumanlar alıb. Şuşa 1992-ci il mayın 8-də erməni qəsbkarları tərəfindən işğal olunub. Azərbaycan musiqisinin beşiyi sayılan Şuşanın onlarla tarixi abidələri, o cümlədən Pənahəli xanın sarayı, Cümə məscidi, Aşağı "Gövhər ağa məscidi", Xurşid Banu Natəvanın evi, Molla Pənah Vaqifin məqbərəsi yağmalanıb. Hətta Ü. Hacıbəyov, Bülbül, Natəvan kimi tarixi şəxsiyyətlərin heykəlləri belə düşmən gülləsinə tuş gəlib... Lakin böyükdən-kiçiyə hamı inanır ki, ən yaxın vaxtlarda Şuşanın başının üstündəki qara duman çəkiləcək, Qarabağ savaşında yüzlərlə şəhid verən Şuşa erməni işğalından azad ediləcək, elindən-obasından didərgin düşən qaçqınlar yenidən öz yurdlarına qayıdacaqdır. Beləcə, Şuşa köhnə yaralara məlhəm qoya-qoya yenə nəğməli-sözlü ömrünü yaşayacaq, yenə havalanacaq "Xanın səsi", "Qarabağın şikəstəsi..."

**Coğrafi mövqeyi**

Şuşa Qarabağ silsiləsində dəniz səviyyəsindən 1400-1500 metr yüksəkliyə malik hamar platoda yerləşən şəhərdir. Dağ-iqlim kurortudur. Müxtəlif növ tikinti materialı yataqları və mineral su bulaqları (Turşsu və Şırlan) var.

**İqtisadi xarakteristikası**

Rayonun iqtisadiyyatının əsasını heyvandarlıq, tərəvəzçilik və bağçılıq təşkil edirdi. Erməni silahlı dəstələri tərəfindən işğaldan əvvəl rayonda 120-dən çox idarə və müəssisə fəaliyyət göstərirdi.

 

**Erməni təbliğatı nəticəsində belə bir yanlış rəy qalır ki, guya Dağlıq Qarabağ tarixi baxımdan erməni torpağıdır. Amma bu, tamamilə yanlış bir məlumatdır. Bu, Azərbaycanın əzəli torpağıdır. Onun bütün toponimləri, tarixi Azərbaycanla bağlıdır. Ermənilərin oraya gəlməsi ancaq XIX əsrin əvvəllərində başlamışdır. Onlar başqa ölkələrdən oraya köçürülmüşlər.**

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Respublika.- 2006.- 4 may.- S. 1.*

## ŞUŞA HƏSRƏTİ

*Şuşasız, Ağdamsız, ümumiyyətlə Qarabağsız Azərbaycan yoxdur.*

*Heydər Əliyev, ümummilli lider*

Qarabağ təbiətin bütün gözəlliklərini özündə əks etdirən gözəl bir diyardır və ən səfalı guşəsi Şuşa şəhəridir. Hər daşı, hər qarış torpağı xalqımızın həyatında baş vermiş bir çox tarixi hadisələrin şahidi olan bu şəhər görənləri valeh edirdi.

Şuşa təkcə cənnət məkanı deyil, həm də hərbi strateji əhəmiyyət kəsb edən bir alınmazlıq, basılmazlıq qalası olmuşdur. Şuşa dağdan açılan pəncərə, aydınlıq, işıqlıq paylayan ucalıqdı. Düşmənlərə, yadellilərə göz dağıydı.

Əsrarəngiz Şuşa şəhərinin binasını qarabağlı Pənahəli xan Cavanşir qoymuşdur. 1747-ci ildə Nadir şah öldükdən sonra Pənahəli bəy xan elan edilir və Qarabağ xanlığını düşmən hücumlarından qorumaq məqsədilə alınmaz bir qala tikdirməyi qərara alır. 1750-ci ildə Qarabağın ən səfalı guşəsində, üç tərəfdən sıldırım qayalarla əhatə olunmuş dağ yaylasında yeni qalanın bünövrəsini qoyur. Pənahəli xan hasarın içərisində yeni binalar və özü üçün saray tikdirir. Yerli əhali yeni salınmış şəhəri Pənahəli xanın şərəfinə «Pənahabad» adlandırır.

Şiş uclu dağlar əhatəsində yerləşən Pənahabad əvvəllər «Şişə», sonralar isə Şuşa adlandırılmağa başlandı.

Pənahəli xanın ölümündən sonra Qarabağın hakimi İbrahim Xəlil xan (1763-1806) öz dövrünün bacarıqlı və siyasətcil dövlət xadimlərindən olmuşdur. Onun dövründə Qarabağ xanlığı daha da güclənir və inkişaf edir.

Pənahəli xan və İbrahim Xəlil xan Qarabağ xanlığının paytaxtı Şuşa şəhərini qədim və orta əsrlərin şəhərsalma nümunələri əsasında yüksək səviyyədə bina etmişdilər. Şəhər 17 məhəlləyə- kvartala bölünmüşdü. Bu məhəllələr-Böyük

qurdlar, Kiçik qurdlar, Seyidli, Culfalar, Təzə məhəllə, Hamam qabağı, Dəmirçilər, Quyuluq, Xoca Əmircan, Mamayı, Saatlı, Köçərli, Merdinli, Çöl qala, Hacı Yusifli, Çuxur məhəllə, Ağa dədəlilərdir. Bu məhəllələr indi də qalmaqdadır.

Ümumiyyətlə, Şuşanın bir şəhər kimi formalaşmasını şərti olaraq üç mərhələyə bölmək olar: **birinci** mərhələ çox qeyri-sabit şəraitdə 1763-cü ilə qədər davam etmiş, tikinti işləri bir qədər tələsik aparılmışdı. Bu dövrdə şəhərin «Çuxur» adlı şərq hissəsində 9 məhəllə salınmışdı. İbrahim Xəlil xanın hakimiyyəti illərinə (1763-1806) təsadüf edən **ikinci** mərhələdə Şuşada aparılan tikinti işləri daha keyfiyyətli və möhtəşəm olmuşdur. Bu dövrdə şəhərdə yaşayış məhəllələrinin sayı 17-yə çatmışdı. XIX əsri əhatə edən **üçüncü** mərhələdə şəhərin dağlıq qərb hissəsində yeni 12 məhəllə salınmış və əslində bununla Şuşanın formalaşması başa çatmışdır.

Dəniz səviyyəsindən təxminən 1400-1800 metr hündürlükdə yerləşən Şuşa hər tərəfdən uzunluğu 400-600 metrə yaxın dərələrlə əhatə olunub, daha yuxarılarda isə Qırxqız, Kirs, Murov, Bağrıqan, Sarıbaba dağlarını görmək mümkündür.

Şuşanın qərb tərəfi dəniz səviyyəsindən təxminən 1800 metr, şərq tərəfi isə 1400 metr yüksəklikdədir. Şəhərin cənub tərəfi nisbətən hündür və horizontal düzənlikdir. Bura «Cıdır düzü» adlanır. Şuşanın yerləşdiyi sahə isə 350 hektardır.

Şuşanın ancaq bir nəqliyyat yolu var idi. Ağdam-Əsgəran-Xocalı-Xanbağı-Ağa körpüsü-Şuşa. Bu yol şəhərin mərkəzinə qədər uzanır. Şuşanın şərq tərəfindəki o qədər də hündür olmayan dağ Dotələb adlanır.

Gündən-günə inkişaf edən, iqtisadi cəhətdən güclənən Qarabağ xanlığı dəfələrlə İranın və qonşu xanlıqların hücumlarına məruz qalmışdır. İranda hakimiyyəti ələ alan Ağa Məhəmməd şah Qacar 1795-ci il iyunun sonunda Qarabağa

hücum edir. İbrahim Xəlil xanın 15000 nəfər seçmə qoşunu Ağa Məhəmməd şah Qacara qarşı qəhrəmanlıqla mübarizə aparırdı. Ağa Məhəmməd şah Qacar Şuşa qalasını 33 gün mühasirədə saxladısa da, heç bir müvəffəqiyyət qazana bilməyib, Tiflis üzərinə hücuma keçir və onu talan edir.

Ağa Məhəmməd şah Qacar 1797-ci ilin yazında ikinci dəfə çoxsaylı ordu ilə Arazı keçib Şuşaya yaxınlaşır. Bəzi şəhər əyanlarının xəyanəti üzündən qısa mühasirədən sonra Şuşa təslim olur. Ancaq şəhərə girən Ağa Məhəmməd şah Qacarın hakimiyyəti bir gün davam edir. Qacar yaxın pişxidmətçiləri tərəfindən öldürülür. Şuşaya qayıdan İbrahim Xəlil xan İranla münasibətləri düzəltmək məqsədilə Qacarın nəşini təmtəraqla İrana yola salır. Öz qızı Ağabəyim Ağanı İranda hakimiyyəti ələ alan Fətəli xana ərə verir, oğlu Əbülfət ağanı isə girov göndərir.

Rus işğalı dövründə də Şuşa Qarabağın paytaxtı kimi öz aparıcı mövqeyini saxlayırdı. Ancaq Rusiyaya güclü Qarabağ xanlığı sərf etmirdi və çar məmurları Qarabağ xanlığını zəiflətmək üçün gözəl üsul tapdılar. Onlar Qarabağa, əsasən də Şuşa şəhərinə yersiz-yurdsuz, dilənçi halında olan erməniləri köçürməyə başladılar. Ermənilərin iyrənc xislətinə yaxşı bələd olan ruslar bilirdilər ki, bu dilənçi millət bir az özlərinə gələn kimi, Azərbaycan xalqına qənim kəsiləcək, başlarına min oyun açacaqlar.

4 may 1805-ci il Kürəkçay müqaviləsi rusların bu fitnəkar siyasətinin əsasını qoydu.

12 oktyabr 1813-cü il Gülüstan və 10 fevral 1828-ci il Türkmənçay sülh müqavilələri Azərbaycan torpaqlarının İranla Rusiya arasında bölüşdürülməsini davam etdirdi və bu köçürmə siyasəti daha geniş vüsət aldı. Türkmənçay sülh müqaviləsinin XV maddəsində deyilir: «…Məmur və sakinlərə bu gündən başlayaraq öz ailəsi ilə birlikdə İran vilayətindən Rusiyaya sərbəst keçmək, hökumət və yerli rəisliyin heç bir maneçiliyi olmadan onların satlıq mallarına və ya əmlakına, əşyalarına hər hansı gömrük və vergi

qoyulmadan tərpənən mülkiyyətini aparmaq və satmaq üçün bir il vaxt verilir».

İkinci Rus-İran müharibəsinin gedişində İrandan Azərbaycana, o cümlədən Qarabağa 18 min erməni ailəsi köçürüldü. Türkmənçay müqaviləsinə görə 2 il ərzində, 1828-ci ildən 1830-cu ilədək, Cənubi Qafqaza 40 mindən çox İran və 84000 Türkiyə ermənisi köçürüldü. Onlar Gəncə və İrəvan quberniyalarının ən yaxşı torpaqlarında yerləşdirildi və onlara 200000 desyatindən çox xəzinə torpağı ayrıldı.

1832-ci ildə Qarabağ əhalisinin 91%-ni azərbaycanlılar, 8,4%-ni isə ermənilər təşkil edirdi. Köçürmə siyasəti nəticəsində azərbaycanlıların sayı 64,8 %-ə endi, ermənilərin sayı isə 34,8 %-ə qalxdı.

1900-1915-ci illərdə Qarabağın incisi olan Şuşa şəhərinin əhalisi isə 25,6 min nəfərdən 43,8 min nəfərə çatmış və o, iqtisadi cəhətdən inkişaf edərək, Qafqazda ən böyük xalça istehsalı mərkəzinə çevrilmişdi.

XIX əsrin sonlarından başlayaraq erməni millətçi təşkilatları Azərbaycanın əzəli torpaqları olan Qarabağ, Naxçıvan və Zəngəzur bölgələrinə yiyələnmək üçün cəhdlər göstərərək, «Böyük Ermənistan» yaratmaq ideyasını həyata keçirmək üçün geniş fəaliyyətə başladılar. Bu istiqamətdə onların ilk hədəfi Zəngəzur və Qarabağı ələ keçirmək idi.

1918-ci ildə rusların səyi nəticəsində Qərbi Azərbaycan torpaqları (İrəvan, Dərələyəz, Zəngibasar, Göyçə və s. mahallar) ərazisində indiki Ermənistan dövləti yaradıldı.

Azərbaycan rəhbərlərinin belə «səxavətli hədiyyəsindən» ruhlanan Ermənistan rəhbərliyi rəsmi surətdə Qarabağa dair ərazi iddiaları irəli sürdü.

RK(b)P-nin Zaqafqaziya Ölkə Komitəsinin 1923-cü il iyunun 27-28-də keçirilmiş plenumu Q.Orconikidzenin təzyiqi ilə və erməni «kommunistləri»ndən Şaduntsun və Karakozovun təklifi ilə ultimatum formasında bir aylıq müddət ərzində Dağlıq Qarabağa vilayət muxtariyyətinin verilməsi haqqında AK(b)P MK-ya tapşırıq verdi. Azərbaycan

rəhbərliyi həmin qərarı yerinə yetirməyə məcbur oldu və Azərbaycan xalqının iradəsinin əksinə olaraq Azərbaycan MİK Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında dekret verdi. Beləliklə, rus şovinistləri və erməni daşnaklarının birgə qurduqları plan əsasında Qarabağda erməni icması üçün «DQMV» yaradıldı.

Çoxsaylı erməni xəyanətinin nəticəsi kimi Şuşa XX əsrdə 3 dəfə erməni təcavüzünün qurbanı olmuşdur. 1905-1907-ci illərdə Şuşa şəhəri ermənilər tərəfindən hücuma məruz qalmış və yandırılmışdır. 1920-ci ildə şəhərin xeyli hissəsi ermənilər tərəfindən dağıdılmışdır. 3-cü dəfə 1992-ci ilin mayında ermənilər bu şəhəri tamamilə işğal etdilər.

Ermənilərin azərbaycanlılarla birinci toqquşması 1904-cü ildə Bakıda oldu. Sonradan bu dalğa böyüyüb bütün Azərbaycana yayılaraq Şuşaya da keçdi. Şuşa qəza rəisi Pivovarov Peterburq müşavirəsinin qərarını praktiki surətdə həyata keçirirdi. Belə ki, o, daşnakları və azərbaycanlıları ayrı-ayrılıqda yanına çağıraraq onların arasına nifaq saldı. Bu düşmənçilik 1905-ci ilin iyununda güclü silahlı münaqişəyə səbəb oldu. Birdən-birə şəhərin erməni məhəlləsindən azərbaycanlılar yaşayan hissəsinə tüfənglərdən atəş açıldı. Ermənilər seminariyanın tikintisində işləyən 100 nəfər azərbaycanlının hamısını doğradılar. Bu 5 gün çəkən davadan sonra Şuşada yaranan dinclik cəmi bir il davam etdi.

1906-cı ildə ermənilərlə azərbaycanlılar arasında yenidən toqquşma başladı. 11 gün ermənilər şəhərin azərbaycanlılar yaşayan hissəsini fasiləsiz tüfəng və pulemyot atəşinə tutdular. Ölənlərin və yaralananların sayı-hesabı bilinmirdi. Davanın 11-ci günü vəziyyətin gərginləşdiyini görən general Qoloşapov öz adamları və ermənilərin nümayəndələri ilə ağ bayraq qaldıraraq atəşin dayandırılmasını təklif etdi. Bundan sonra atəş dayandı. 1906-cı ildə qan düşmənlərimiz təkcə Qarabağ ərazisində 750 min soydaşımızı məhv etmiş, 600-dən çox yaşayış məntəqəsini yandıraraq viran qoymuşdular.

1920-ci il martın 22-də azərbaycanlıların Novruz bayramında iştirak edən erməni yepiskopu azərbaycanlılarda arxayınlıq yaratmaq üçün öz çıxışında azərbaycanlılarla ermənilərin dost və qardaş olduğunu, lənətə gəlmiş şeytanın isə düşmənçilik yaratdığını söyləmişdi. Elə həmin günün gecəsi azərbaycanlılar uzaqdan açılan atəş səslərinə oyandılar. Məlum oldu ki, atəş Xankəndində ermənilər tərəfindən açılır. Bunun ardınca hər tərəfdən Şuşanın azərbaycanlılar yaşayan hissəsinə atəş açılmağa başladı. 200 nəfər azərbaycanlılardan ibarət hərbi qarnizon da ermənilər tərəfindən mühasirəyə alındı. Bundan sonra hücuma keçən azərbaycanlılar özlərini müdafiə etməyə başladılar. Ancaq ermənilər artıq iyrənc niyyətlərini yerinə yetirmişdilər. Erməni daşnakları Xankəndinin müsəlman qarnizonunun hospitalına hücum edərək xəstə əsgərləri öldürmüşdü. Bu hücum zamanı Şuşanın yarısı tamamilə yandırılıb, talan edilmişdi.

Ermənilərin hücumları nəticəsində 100-dən çox azərbaycanlı öldürülmüş və yaralanmışdı. Şuşa qəzasının azərbaycanlı əhalisinə 100 milyon manat məbləğində zərər dəymişdi. Azərbaycanın ən varlı vilayətlərindən olan Şuşa qəzası o dərəcədə dağıdılmışdı ki, o özünün iqtisadi vəziyyətini uzun müddət bərpa edə bilməmişdi.

Qarabağın mərkəzi Şuşada erməni zadəganlarının bir qədər çoxluğu və separatçılıq hərəkətlərinə başçılıq edən Erməni milli şurası burada yerləşdiyindən, onların ermənilərə təsir etmək imkanları güclü olmuşdur.

Buna görə də Şuşa qəzasında ermənilərin törətdikləri qırğınlar daha kütləvi, mütəşəkkil xarakter almış və bu da Qarabağın Azərbaycan Respublikasından ayrılmaq təhlükəsini yaratmışdır.

Şuşa heç zaman ermənilərə boyun əyməmiş, onların hücumlarına layiqli cavab verməyi bacarmışdır. Amma bununla belə alınmaz qala alındı. 1992-ci il may ayının 8-də gecə saat 2 radələrində ermənilərin aramsız, amansız hücumları, güclü atəşləri başladı. Hər tərəfdən mühasirədə

olan Şuşa Ayaz Mütəllibovun, Rəhim Qazıyevin xəyanətinin nəticəsi olaraq ermənilərə təslim edildi.

Şuşanın işğalının əsas səbəblərindən biri də özlərini Milli Ordunun komandirləri, döyüşçüləri kimi tanıtdıranların xəyanəti olmuşdur. Müharibənin ən çətin, müsibətli günlərində onlardan bir nəfər də olsun Şuşada qalmamışdı. Hamısı əvvəlcədən qaçmış, döyüş mövqeyini boş qoymuşdular. Müharibələr tarixində heç zaman buna oxşar nankorluq, nadanlıq olmayıb.

Bu gün şuşalılar ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş Ramiz Qənbərin müqəddəs ruhuna daim dualar oxuyur, onun cəsarəti, düşmənə nifrəti unudulmur. Ramizin timsalında 72 nəfər şəhid olanları, 25 nəfər itkin düşənləri də bu gün ehtiramla yad edirlər.

## *ŞUŞA – AZƏRBAYCANIN TARİX VƏ MƏDƏNİYYƏT İNCİSİDİR*

Şuşa Azərbaycanın demək olar ki, böyük bir tarixi abidəsi, eyni zamanda-əgər bunu şeir dili ilə desək, incisidir.

**Heydər Əliyev, ümummilli lider**

Şuşa Qarabağın sənətkarlıq mərkəzlərindən biri olmuşdur. Şəhərdə müxtəlif sənət sahələrinin inkişafı, ticarət əlaqələrinin genişlənməsi, mənəvi mədəniyyətin yüksəlməsi onun şöhrətini uzaqlara yaymışdır. Şuşanın çeşid-çeşid mallarının sorağı Təbriz, İsfahan, Tehran, İstanbul, Moskva, Novqorod və başqa şəhərlərdən gəlmişdir.

Hələ XIX əsrdə burada həyat qaynamış, Şuşa bir mədəniyyət mərkəzinə çevrilmişdir. Şəhər Qafqazın, Yaxın Şərqin və Orta Asiyanın müxtəlif guşələrindən gəlmiş şair və yazıçıların, musiqiçilərin, teatr xadimlərinin toplaşdığı şeir, sənət məkanına çevrilmişdir.

Məhz həmin vaxtlar Şuşa «Qafqazın konservatoriyası» adını almış, vokal məktəbi kimi Yaxın və Orta Şərqdə məşhur olmuşdur. Tədqiqatçılar çox doğru olaraq qeyd edirlər ki, «İtaliya vokal məktəbi» Avropa musiqi mədəniyyəti tarixində hansı mövqeyi tutursa, «Şuşa vokal məktəbi» də Şərq musiqi mədəniyyəti tarixində eyni mövqeyi tutur.

Bu torpaq dünya musiqi mədəniyyəti xəzinəsinə professional Azərbaycan musiqisinin banisi, dahi bəstəkar Üzeyir Hacıbəyovu, Azərbaycan vokal sənətinin banisi Bülbülü bəxş etmiş, musiqiçi və rəssam Mir Möhsün Nəvvab, şair və yazıçılardan Xurşid Banu Natəvan, Qasım bəy Zakir, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli burada böyüyüb ərsəyə gəlmiş, daha neçə-neçə şair, bəstəkar və müğənni məhz bu torpağın suyunu içmiş, onun ab-havasından qidalanmışdır. Bu adamların hər biri öz ömrünü xalqımızın maariflənməsinə, elm və mədəniyyətimizin inkişafına sərf etmişdir.

Şuşa Azərbaycan musiqi tarixində əvəzsiz xanəndələr və ifaçılar yetirmişdir.

Əli Əsgər (Sadıqcanın müəllimi), Sadıqcan (1846-1902); Məşədi Zeynal (1850-1918), Malıbəyli Həmid (1865-1922), Məşədi Cəmil Əmirov (1875-1928), qarmonçalan Kərbəlayı Lətif (1876-1944), mərsiyəxan xanəndə, qarmonçalan Abutalıb Yusifov (1884-1937) və başqaları Azərbaycan ifaçılığı tarixində özünəməxsus yer tutmuşdur.

XIX əsrin əvvəllərindən bu günümüzə qədər şəhərin Azərbaycan musiqi mədəniyyətinə bəxş etdiyi xanəndələri xatırlasaq, fəxrlə demək olar ki, xanəndəlik tarixinin inkişafında Şuşa ifaçılarının əvəzsiz rolu olub. Hacı Hüsü, Məşədi İsi, Bülbülcan, Malıbəyli Cümşüd, Cabbar Qaryağdı oğlu, Keçəçi oğlu Məhəmməd, Məşədi Məmməd Fərzəliyev, Zabul Qasım, Məcid Behbudov, Segah İslam, Seyid Şuşinskinin adlarını xüsusi qeyd etmək olar. XX əsr xanəndəlik sənətinin inkişafında isə Musa Şuşinski, Xan

Şuşinski, Pəs xan Cəlil və Bülbülün adlarını çəkmək kifayətdir.

Şuşada ilk musiqi məktəbinin yaradılması XIX əsrin 70-ci illərində Xarrat Qulu və Molla İbrahimin adı ilə bağlıdır.

XX əsrdə Şuşada musiqi təhsilinin inkişaf etdirilməsi sahəsində də bir çox işlər görülmüşdür.

1932-ci ildə Bülbülün təşəbbüsü ilə şəhərdə ilk musiqi məktəbi fəaliyyətə başlayır. Üzeyir Hacıbəyovun tələbəsi olmuş bir çox təcrübəli müəllimlər, o cümlədən Fatma xanım Zeynalova, Qənbər Hüseynli, Rəsul Əsədov və başqaları bu məktəbdə çalışmışlar. Bəstəkarlardan Əşrəf Abbasov, Süleyman Ələsgərov, dirijor Kamal Məmmədov ilk musiqi təhsilini bu məktəbdə almışlar.

Məktəb 1984-cü ildən Niyazi adına «Uşaq İncəsənət Musiqi Məktəbi» kimi fəaliyyət göstərir.

1974-cü ildə yaranan Orta İxtisas Musiqi Məktəbi 1980-cı ildə Musiqi texnikumuna çevrilir.

1990-cı ildə Şuşada daha bir musiqi məktəbi – Bülbülcan adına Uşaq Musiqi Məktəbi təşkil olunur. 1990-cı ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının Şuşa filialı yaradılır və filiala Süleyman Ələsgərov direktor təyin edilir. Şuşada filialın yerləşdirilməsi üçün münasib bina seçilsə də, artıq get-gedə gərginləşməkdə olan Qarabağ problemi bu təhsil ocağının müvəqqəti olaraq Bakıda fəaliyyət göstərməsinə səbəb olur.

Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının Şuşa filialı 1990-cı ildən-2000-ci ilə qədər Bakı Musiqi Akademiyasının binasında yerləşmişdir. Hal-hazırda bütün başqa filiallar kimi Şuşa filialı da ləğv edilmişdir.

Şuşa şəhərinin ərazisi qədim abidələrlə zəngin idi. Elmi mənbələrdən məlum olur ki, Şuşada 241 tarixi abidə, 549 qədim bina, ümumi uzunluğu 1203 metr olan daş döşənmiş küçə, 17 məhəllə, 17 bulaq, 17 məscid, 6 karvansara, 2 mədrəsə, 2 qəsr və qala divarları mövcud idi. O

cümlədən şəhərdə 72 mühüm sənət və tarixi abidələr, dövlət xadimlərinin və başqa mötəbər simaların evləri olmuşdur.

Bu abidələrin çoxu Şuşanın XIX əsrdə yaşamış ən bacarıqlı memarı Kərbəlayi Səfixan tərəfindən tikilmiş və həmin dövrün ən səliqəli nəqqaşı Kərbəlayi Səfərəli tərəfindən nəqşlənmişdir. Bu abidələr içərisində Xurşid Banu Natəvanın, İbrahim xanın, Gövhər ağanın, Nəvvabın, Hacıqululuların, Zakirin, Bakinin, Şahzadə Bəhmən Mirzənin, Məhəmməd bəyin, Uğurlu bəyin və başqalarının evlərini, tarixi əhəmiyyətə malik məscidləri, hamamları, bulaqları, «Məclisi-fəramuşan»ın binasını, saqqaxanaları və başqalarını xüsusilə qeyd etmək vacibdir.

Şuşanın şəhərsalma həlli, yaşayış məhəllələri, onun qalası, məscidləri Azərbaycan memarlığının nadir nümunələridir. Məhz buna görə də Azərbaycan hökuməti 1977-ci ildə Şuşa şəhərini qoruq elan etmişdir.

Təəssüflə qeyd etməliyik ki, artıq bütün bu abidələr, o cümlədən M. P. Vaqifin məqbərəsi erməni faşistləri tərəfindən dağıdılmış və hətta güllələnmişdir. Hazırda şəhərin didərgin əhalisi arasında həm də güllələnmiş heykəllər var. Bu Azərbaycan mədəniyyət tarixinin şanlı səhifələrini yazmış Xurşid Banu Natəvan, Üzeyir bəy Hacıbəyov və Bülbülün heykəlləridir. Əsirlikdən xilas edilmiş «yaralı heykəllər» hazırda R. Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində qaçqınlıq həyatını yaşayır.

Şuşa şəhərinin XVIII əsrə aid Yuxarı Gövhər ağa məscidi, Aşağı Gövhər ağa məscidi, Saatlı məscidi, Gəncə qapısı, Xan qızı X. B. Natəvanın karvansarası, evi, mülkü, Şuşa şəhər qəbiristanlığı erməni işğalçıları tərəfindən məhv edilmişdir. Şuşa şəhəri və onun tarixi abidələri erməni terrorizminin əlində oyuncağa çevrilmiş və xəyanətin qurbanı olmuşdur. Biz indi Şuşa haqqında, onun tarixi abidələri barəsində məlumatları yalnız xarici nümayəndələrdən alırıq. Hazırda Şuşada ata-babalarımızın uyuduqları Mirzə Nəvvab və

Mir Vazeh qəbiristanlıqlarının, şəhid məzarlarının salamat olub olmamasını heç kim dəqiq deyə bilmir.

Aparılan tədqiqatların nəticəsində müəyyən edilmişdir ki, XIX əsrdə Şuşa şəhərində 95 şair, 22 musiqişünas, 38 xanəndə, 12 nüsxəbənd, 19 xəttat, 16 nəqqaş, 18 memar, 5 astronom, 16 həkim, 42-yə qədər müəllim və s. olmuşdur. Bu böyük ziyalı dəstəsi Şuşa şəhərini mədəniyyət mərkəzinə çevirməkdə və burada mədəniyyəti inkişaf etdirməkdə mühüm rol oynamışdır.

Şuşa şəhərində mədəniyyətin inkişafında və böyük sənətkarların yetişməsində gözəl və sadə təbiətli bir insanın— Xurşid Banu Natəvanın rolu xüsusilə diqqətəlayiqdir. Natəvan özü «Məclisi-üns»ə rəhbərlik etmiş, incə, gözəl qəzəllər yazmışdır. O, həmişə xalqının dərdinə şərik olan sadə bir Azərbaycan qadını olmuşdur. Şuşa əhalisinin sudan korluq çəkdiyini görən Xan qızı 1873-cü ildə Sarıbaba dağlarından saxsı borularda şəhərə şirin su kəməri çəkdirmişdir. 1992-ci ilə kimi Şuşadakı «Xan qızı» bulağı saf və göz yaşı kimi şəffaf suyu ilə ürəklərə şəfa verirdi. Çox təəssüf ki, bulağın suyundan hazırda şuşalıların istifadə etmək imkanları yoxdur.

XIX əsrdən Şuşa öz ədəbi məclisləri ilə diqqət mərkəzində olmuşdur. Şübhəsiz ki, məhz bu məclislərin fəaliyyəti nəticəsində Şuşa şəhəri böyük incəsənət və musiqi mərkəzinə çevrilmişdir.

XX əsrin əvvəllərində, 1901-ci ildə Şuşada Əbdürrəhim bəy Haqverdiyevin rəhbərliyi ilə ilk dəfə «Şərq konserti» keçirilir. Bu konsert sonrakı illərdə Bakıda da təşkil olunmuşdur.

Bu ənənənin davamı olaraq 1980-1990-cı illərdə Şuşanın mədəni həyatında «Mahnı bayramları», Beynəlxalq «Xarı bülbül» folklor festivalları da xüsusilə yadda qalmışdır. 1983-cü ildə şəhər ziyalılarının təşəbbüsü ilə təşkil olunan «Mahnı bayramı» 1991-ci ilə qədər hər il may ayında Şuşanın dilbər guşələrindən biri olan Cıdır düzündə keçirilmişdir.

1981-ci ildə Şuşada görkəmli şairimiz Molla Pənah Vaqifin məqbərəsinin açılışı olmuş, bu mərasimdə ümummilli liderimiz Heydər Əliyev başda olmaqla respublikanın rəhbər orqanlarının nümayəndələri və bir çox incəsənət xadimləri, ədiblər iştirak etmişdilər. Sonralar hər il may ayında Cıdır düzündə Vaqif poeziya günləri keçirilirdi. Qeyd etmək lazımdır ki, Molla Pənah Vaqifin məqbərəsi öz gözəlliyi ilə şəhərin memarlıq abidələri siyahısına daxil olmuşdur.

XX əsrdə Şuşanın mədəni həyatı görkəmli incəsənət xadimlərinin yubileyləri ilə də zəngindir. Hər il Ü. Hacıbəyovun, Bülbülün, X. Şuşinskinin, C. Qaryağdı oğlunun, X.B. Natəvanın, M. P. Vaqifin və onlarca görkəmli şəxsiyyətlərin yubileyləri təntənəli şəkildə qeyd olunurdu.

XX əsrdə şəhərin mədəni mühitində müxtəlif illərdə fəaliyyət göstərmiş Şuşa, Kolxoz-Sovxoz Teatrı, Üzeyir Hacıbəyov adına Şuşa Dövlət Musiqili Teatrı, Şuşa Musiqili Xalq Teatrı adı ilə tanınan musiqili teatrların xüsusi rolu olmuşdur.

1992-ci il mayın 8-dən bu günə qədər ermənilər Pənah xanın yadigarı olan Şuşanı-Pənahabadı dağıdırlar. Çoxlu sayda yaşayış evlərini , məktəbləri, muzeyləri yandırdılar. 5000-ə yaxın eksponatı olan Şuşa Tarix Muzeyinin dağıdılması Qarabağın son 250 illik tarixinə erməni xəyanətinin sübutudur.

Mir Möhsün Nəvvab, Natəvan xanım, Üzeyir Hacıbəyov, Bülbül, Cabbar Qaryağdı oğlu, Süleyman Ələsgərov və çoxlu sayda elm və sənət adamlarının şəhəri olan Şuşa artıq 15 ildir ki, işğal altındadır.

Azərbaycan xalqı bu məğlubiyyətlə barışmır. Ölkə başçısı bu həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün gecəli-gündüzlü çalışır. Biz bu xəyanəti unutmadan öz tarixi torpaqlarımızı geri almasaq, bu mübarizədə həlak olmuş oğullarımızın ruhu qarşısında ömürlük xəcalətli qalacağıq.

Şuşa şəhəri mütləq geri alınmalıdır. Çünki ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi, «Şuşasız Azərbaycan yoxdur».

## *ŞUŞA BU GÜN DƏ YAŞAYIR*

Şuşanın işğalına gedən yol Meşəlidən, Kərkicahandan, Malıbəylidən, Quşçulardan, Xocalıdan… keçdi. Bütün bunlara baxmayaraq, Şuşanın işğalına heç kəs inanmırdı, ağlına belə gətirmirdi. Ancaq bu hadisə baş verdi və Şuşa 1992-il mayın 8-də erməni və rus işğalçıları tərəfindən işğal edildi. Şuşanın işğal günü bütün Azərbaycan xalqının mənəviyyatına vurulmuş ağır bir zərbə, bizim hamımız üçün ağır bir dərddir.

Artıq 15 ildir ki, bu qədim və müqəddəs torpaq erməni işğalçıları tərəfindən zəbt edilmişdir. Mədəniyyət və təhsil ocaqlarımız-8 muzey, 31 kitabxana, 17 klub, 8 mədəniyyyət evi, 25 orta məktəb, 40 tibb müəssisəsi, 241 tarixi abidə dağıdılmış, viran edilmişdir. Şuşa muzeylərinin qiymətli sərvətləri—rəsm və heykəltəraşlıq əsərlərini, xalça və xalça məmulatlarını, xalq tətbiqi sənət nümunələrini, arxeoloji tapıntıları, çox gərəkli sənədləri, Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə əşyalarını, digər qiymətli materialları Ermənistana aparmışlar. İndi həmin əşyalar xarici auksionlarda satılır, yaxud müxtəlif sərgi və muzeylərdə dünya ictimaiyyətinə erməni mədəniyyət nümunəsi kimi təqdim olunur.

Şuşada Dövlət Dram Teatrı, Dövlət Qarabağ tarixi və Şuşa şəhərinin tarixi muzeyləri, Üzeyir Hacıbəyovun, Bülbülün, Mir Möhsün Nəvvabın xatirə muzeyləri, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Dövlət Rəsm Qalereyası, orta və orta ixtisas musiqi məktəbləri, kitabxanalar fəaliyyət göstərirdi.

XX əsrdə Şuşa tarixdə görünməmiş faciəli hadisələrlə üzləşdi, işğal olundu. Övladları yerindən-yurdundan didərgin düşdü, şəhidlər verdi, ancaq əsrlər boyu olduğu kimi sınmadı, əyilmədi və Şuşa indi də yaşayır.

Qeyd etmək lazımdır ki, Şuşa indi düşmən əlində olsa da, əsrin əvvəllərində Şuşada fəaliyyət göstərən bir çox mədəniyyət və təhsil ocaqları işğaldan sonra öz işlərini Bakı

şəhərində və respublikanın başqa bölgələrində davam etdirirlər.

1992-ci il mayın 8-dən, Şuşanın işğalından sonra Şuşa Dövlət Dram Teatrı həmin ilin avqust ayından müvəqqəti olaraq Bakıda Gənc Tamaşaçılar Teatrının binasında yerləşdirilmiş və bu günə qədər bir çox görkəmli sənətkarların əsərlərini tamaşaya qoymuşdur. Bu da bir daha sübut edir ki, XX əsri Şuşasız başa vursaq da bu mədəniyyət ocağının ənənələri hələ də yaşayır və yaşayacaqdır.

Hazırda rayon əhalisinin 15 min nəfərdən çoxu Bakı şəhərində müxtəlif sanatoriya, pansionat, düşərgə və yataqxanalarda müvəqqəti məskunlaşmışdır.

Vaxtilə Şuşa şəhəri bir şəhər sovetliyindən ibarət idi. İndi Şuşa rayonu bir şəhər nümayəndəliyi və 12 kənd nümayəndəliyindən ibarətdir və onun əhalisi respublikanın 59 rayonunda 700 yaşayış məntəqəsində məskunlaşmışdır. İşğal ərəfəsində Şuşanın 26 min əhalisi vardı, indi onun sayı 25 mindir. Hazırda fəaliyyət göstərən 25 orta məktəbdən 16-sı Bakıda, 9-u Azərbaycanın müxtəlif rayonlarında yerləşir. Rayon Mədəniyyət şöbəsi və 8 Uşaq Musiqi Məktəbi, Musiqi texnikumu, Mədəni-maarif texnikumu Bakıda fəaliyyət göstərir.

«Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi haqqında» Respublika Prezidentinin 2003-cü il 24 noyabr tarixli və «Azərbaycan respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında» 11 fevral 2004-cü il tarixli 24 saylı Fərmanına uyğun olaraq rayon İcra Hakimiyyətində tədbirlər planı hazırlanmış, xeyli işlər görülmüşdür. 4 yeni fermer təsərrüfatı yaradılmışdır. 7 müxtəlif Məhdud Məsuliyyətli Cəmiyyət və firma təsis edilmişdir.

Şuşa Azərbaycanın bəlkə də yeganə bölgəsidir ki, bu qədər tarixi şəxsiyyətlər, incəsənət xadimləri yetişdirib, Azərbaycanın başını uca edib. Azərbaycan mədəniyyətinə bu

cür dühalar, tarixi şəxsiyyətlər, incəsənət xadimləri bəxş etmiş bu şəhər, nə qədər istəsələr də heç vaxt, heç bir vəchlə başqa bir millətin ola bilməz. Bu şəhəri  özünün adına çıxmağa çalışan hər hansıbir millətin arzusu ürəyində qalacaqdır. Düşmənlərimiz Şuşanı müvəqqəti işğal etsələr də, kənd-kəsəklərinə yalançı adlar qoysalar da, onu heç vaxt özününküləşdirə bilməyəcəkdir.

Ümummilli liderimiz, böyük şəxsiyyət,  görkəmli dövlət xadimi  Heydər Əliyev işğal altında olan torpaqlarımızın sülh yolu ilə azad edilməsi üçün əzmlə mübarizə aparmışdır. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də bu siyasəti ardıcıl və  geniş şəkildə davam etdirir. Cənab İlham Əliyev dəfələrlə birmənalı təkrar edib ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmamış, heç bir danışıqdan söhbət gedə bilməz.

Erməni faşistləri  başqalarının köməyi ilə zəbt etdikləri torpaqlarımızı, şəhərlərimizi, o cümlədən doğma Şuşamızı sülh yolu ilə tərk etməlidirlər. Əks təqdirdə, Azərbaycan xalqı və onun rəşadətli ordusu düşməni məhv edərək öz torpaqlarını azad edəcəkdir.

## *GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏR ŞUŞA HAQQINDA*

Şuşanın işğal altında olması qəlbimizi kədərləndirir, sıxır, incidir…Şuşanın işğalına şərait yaradanlar, onu sadəcə olaraq hakimiyyət mübarizəsi zamanı qurban veriblər ki, bu da dəhşətdir.

**Heydər Əliyev, ümummilli lider**

Hər bir azərbaycanlı üçün Şuşa hər şeydən əvvəl milli namus, milli vicdan, milli şərəf rəmzidir.

**Polad Bülbüloğlu, Azərbaycanın Xalq artisti**

Axşam vaxtı Şuşa şəhərinin məğrib tərəfi behiştin bir guşəsini yada salır. Avropanın Şvetsariyasını görənlər buranı Şvetsariyaya oxşadırlar. Ufa şəhərinin «Çin» yaylaqlarını görənlər Xan sarayının Zöhrə vaxtı məğrib tərəfi mənzərəsini oraya oxşadırlar. Mən də Qafqaz yolunun «landşaft» görünüşlərini görən bir Allah bəndəsi bunu cürətlə deyirəm ki, şəhərin şam vaxtı məğrib tərəf sehrigahı o qədər ki, insana ürək şadlığı verir, az bir qeyri yerdə bu səadət ələ düşə bilər.

**Cəlil Məmmədquluzadə, XX əsr Azərbaycan yazıçısı**

…Şuşa təkcə özünün gözəl təbiəti ilə deyil, həmçinin yüksək ahəngdar və poetik mədəniyyəti ilə də şöhrət qazanmışdır. Şuşanı əbəs yerə poeziya və musiqinin beşiyi adlandırmırlar. Demək olar ki, Azərbaycanın bütün məşhur oxuyanları və çalanları Şuşada doğulmuşdur.

**Səməd Vurğun, Xalq şairi**

Nyu-Yorkda azadlığa, Tbilisidə ana dilinə abidə var. Dinə, Peyğəmbərə, İsaya ən böyük heykəli Lissabonda qoyublar. Mədəniyyətə-poeziyaya, musiqiyə, muğama heykəli isə biz qoymalıyıq. Özü də mütləq Şuşada!

**Qarayev Yaşar, ədəbiyyatşünas alim**

Yaşıl otlaqların büründüyü sıldırım dağ döşündə gözəl mənzərəli Şuşa şəhəri durmuşdu. Onun gözəl təbiət mənzərələri hər il səyyahları özünə cəlb edir. Lakin Şuşadan alınan estetik təəssürat bununla qurtarmır. Burada Azərbaycanın başqa rayonlarına nisbətən musiqiçi daha çoxdur. Şuşa musiqiçiləri Azərbaycan musiqisinin tarixini yaratmış və onu yalnız öz vətənlərində deyil, həm də Şərqin başqa ölkələrində təmsil etmişlər.

**V. Vinoqradov, rus musiqişünası**

## *ƏSAS TARİXİ HADİSƏLƏR*

**1750** Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən Şuşa qalasının əsası qoyulmuşdur.

**1795** Ağa Məhəmməd şah Qacarın qoşunu şəhəri mühasirədə saxlamış, lakin müdafiə əzmini qıra bilməmişdir.

**1796** Ağa Məhəmməd şah Qacar yenidən Qarabağa hücum etmiş, bəzi şəhər əyanlarının xəyanəti üzündən qısa mühasirədən sonra Şuşa təslim olmuşdur.

**1805** Mayın 14-də İbrahim Xəlil xan Sisiyanovun Gəncədən 20 verst aralıda, Kürəkçay sahilindəki düşərgəsində Kürəkçay müqaviləsini imzalamışdır.

**1807** Şuşada ilk dövlət məktəbi təsis edilmişdir.

**1813** Rusiya ilə İran ərazisində Gülüstan Sülh müqaviləsi bağlandı və Azərbaycan torpaqlarının bölüşdürülməsinə başlandı.

**1828** Fevralın 10-da Türkmənçay Sülh müqaviləsi bağlandı. Azərbaycan torpaqlarının İranla Rusiya arasında bölüşdürülməsi başa çatdı.

| | |
|---|---|
| **1848** | Şuşada ilk teatr tamaşaları göstərilmişdir. |
| **1881** | Şuşada realni məktəbi açılmışdır. |
| **1891** | Xandəmirov Şuşada yeni teatr binası tikdirmişdir. |
| **1894** | Şuşada qadın ibtidai məktəbi açılmışdır. |
| **1901** | Şuşada Əbdürrəhim bəy Haqverdiyevin rəhbərliyi ilə ilk dəfə «Şərq konserti» keçirilmişdir. |
| **1905-1907** | Şuşa şəhəri ermənilər tərəfindən hücuma məruz qalmış və yandırılmışdır. |
| **1918-1920** | Erməni- müsəlman toqquşması nəticəsində şəhərin xeyli hissəsi ermənilər tərəfindən yandırılmışdır. |
| **1922** | Şuşa Mədəni-maarif texnikumu və İncəsənət məktəbi yaradılmış və bu günə kimi fəaliyyət göstərir. |
| **1930** | Şuşada ilk Musiqi texnikumu yaradılmışdır. |
| **1932** | Bülbülün təşəbbüsü ilə şəhərdə ilk musiqi məktəbi fəaliyyət göstərməyə başlamışdır. |
| **1932** | Azərbaycan Həmkarlar İttifaqı Şurasının 1 saylı istirahət evi yaradılmışdır. |

| | |
|---|---|
| **1938-1943** | Şuşa Dövlət Dram Teatrı fəaliyyət göstərmişdir. |
| **1949** | Şuşa Musiqili Dram Teatrı kimi fəaliyyət göstərir. |
| **1961** | Respublika Kommunal Təsərrüfatı Nazirliyi işçilərinin uşaqları üçün şəhərin səfalı guşələrindən biri olan «Üç mıx» ətrafında 100 nəfərlik pioner düşərgəsi istifadəyə verilmişdir. |
| **1965** | Turşsuda 200 yerlik pansionat tikilmişdir. |
| **1970** | Bu illərdə şəhərdə «Oxu tar», «Tər çiçəklər», «Muğam» ansamblları yaradılmışdır. |
| **1977** | Şuşa şəhəri dövlət qoruğu elan edilmişdir. |
| **1981** | Şuşada görkəmli şairimiz Molla Pənah Vaqifin məqbərəsinin açılışı olmuşdur. |
| **1982** | Mədəniyyət Nazirliyinin qərarı ilə uğurlarına görə «Oxu tar», «Tər çiçəklər», «Muğam» ansambllarına «Xalq ansamblı» adı verilmişdir. |
| **1983** | Şəhər ziyalılarının təşəbbüsü ilə «Mahnı bayramları» təşkil edilmiş və 1991-ci ilə qədər hər il may ayında Şuşanın dilbər guşələrindən biri olan Cıdır düzündə keçirilmişdir. |

| | |
|---|---|
| **1984** | Niyazi adına «Uşaq İncəsənət Musiqi Məktəbi» fəaliyyətə başlamışdır. |
| **1985** | Xurşid Banu Natəvan adına Respublika uşaq (vərəm) sanatoriyası yaradılmışdır. |
| **1989** | Cıdır düzündə «Xarı bülbül» Ümumittifaq muğam festivalı keçirilmişdir. |
| **1989** | Şuşada televiziya ötürücü stansiyası fəaliyyətə başlamışdır. |
| **1990** | Şuşada daha bir musiqi məktəbi-Bülbülcan adına Uşaq musiqi məktəbi yaradılmış və Ü. Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının Şuşa filialı açılmışdır. |
| **1992** | May ayının 8-də Şuşa şəhəri faciəli şəkildə erməni və rus silahlı qüvvələri tərəfindən işğal edilmişdir. |

## ŞUŞANIN İŞĞALININ 15-Cİ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR KİTABXANALARDA HƏYATA KEÇİRİLƏN KÜTLƏVİ TƏDBİRLƏR

Azərbaycanın əzəli torpağı olan Şuşa şəhərinin erməni işğalçı qüvvələri tərəfindən zəbt olunduğu gündən artıq 15 il keçir.

1992-ci il mayın 8-i Azərbaycan xalqı üçün ən ağır, ən üzüntülü gündür. Bu dərd, bu acı hər bir azərbaycanlının qəlbində dərin iz qoyub. Heç bir azərbaycanlı Şuşa, Qarabağ itkisi ilə barışa bilməz.

Azərbaycanın mədəniyyət və tarix incisi Şuşanın işğalının 15-ci ildönümü ilə əlaqədar Respublikamızın kütləvi və Mərkəzləşdirilmiş Kitabxana Sistemlərində ardıcıl kütləvi tədbirlərin təşkil edilməsi məqsədəuyğun olardı. Kitabxanaçı hər şeydən əvvəl hərbi-vətənpərvərlik hisslərini təbliğ edən, vətəni qorumaq, sevmək kimi güclü duyğuları aşılayan tədbirlər hazırlamalıdır. Kitabxanaya daxil olan hər kəsin, hər bir oxucunun görə biləcəyi yerdə «Bunları unutmaq olmaz», «Qan yaddaşımız», «Əsir torpaqlarımız bizi gözləyir» və s. başlıqlarda işğal altında olan rayonlarımızın adı, işğal tarixi diqqəti çəkən şəkildə yazılıb asılmalıdır. Kitabxanada Şuşanın işğalının 15 illiyi ilə əlaqədar anım mərasimləri, baş verən hadisələrin canlı şahidləri ilə görüşlər, ədəbi-bədii kompozisiyalar, sərgilər, guşələr təşkil olunmalıdır. Mədəni-maarif müəssisələrində «Haray», «Ağ atlı oğlan», «Fəryad» və digər bədii-sənədli filmlərin nümayişinə xüsusi diqqət verilməlidir.

«Şuşa bizi gözləyir», «Şuşa və onun tarixi keçmişi», «Ən böyük düşmənimiz unutqanlığımızdır», «Şuşa bu gün» və s. başlıqlarda kitabxana plakatları hazırlayıb kitabxananın diqqəti cəlb edən yerindən asmaq lazımdır. Plakatın əsas ünsürləri kitabların üz qabığı (plakatda əl ilə çəkilmiş, yaxud fotoşəkil), bir neçə sitat, qısa mətn və plakatın əsas ideyasını açan mənalı başlıqlardır. Plakatın tərtibində kitablara çəkilmiş

illüstrasiyalardan da istifadə etmək olar. Plakatda ədəbiyyatın qısa annotasiyası mütləq verilməlidir. Annotasiyalar kitabların ideya və məzmununun açılmasına kömək edir.

Kitabxanalarda «Şuşa Azərbaycanın tarix və mədəniyyət incisidir», «XX əsrdə Şuşa şəhərinin musiqi mədəniyyəti», «Biz torpaqlarımıza qayıdacağıq», «Şuşa bizi gözləyir» və s. mövzularda oxucu konfransları təşkil etmək məqsədəuyğun olardı.

Oxucu konfransının keçirilməsi üçün qabaqcadan ayrıca proqram tərtib edilməlidir. Proqramda keçiriləcək tədbirin adı, məruzəçinin və eləcə də çıxış edəcək şəxslərin adları göstərilməlidir. Bütün bunlarla yanaşı tədbirin harada və nə vaxt keçiriləcəyi də qabaqcadan müəyyən edilməlidir. Konfransın hazırlıq işi 3 aya qədər davam edə bilər. Fonddan konfransın mövzusuna uyğun ədəbiyyat seçilərək məruzəçiyə və çıxışçılara tövsiyə olunmalıdır. Kitabxanaçı konfransda çıxış edəcək hər bir oxucunu kitabla təmin etməli və onların çıxışa hazır olub-olmadığını əvvəlcədən müəyyənləşdirməlidir.

Yalnız bundan sonra konfransın vaxtını təyin edib elan yazmaq olar. Konfransa işğalın canlı şahidlərini—erməni vəhşiliklərindən əziyyət çəkmiş şəxsləri cəlb etmək lazımdır. Əlbəttə, kitabxanaçı təşkil etdiyi hər bir tədbirdə özü də çıxış etməlidir. O, tədbirin mövzusu üzrə kitabxana tərəfindən həyata keçirilmiş məsələlərdən danışmalıdır. Oxucu konfransının gedişatı haqqında protokol yazılmalı, həmin protokol və məruzəçinin çıxışının mətni kitabxanada saxlanılmalıdır.

Kitabxanalar «Şuşa və onun tarixi keçmişi», «Şuşa qisas gününü gözləyir», «Musiqi beşiyimiz Şuşa», «Şuşasız Azərbaycan, Azərbaycansız Şuşa ola bilməz» və s. mövzularda məruzə və mühazirələr keçirə bilərlər.

Biblioqrafik icmallar da geniş yayılmış şifahi üsullardan biridir. Biblioqrafik icmal keçirməkdə məqsəd

oxucuları Şuşa haqqında yenicə çapdan çıxmış kitablarla tanış etmək və eyni zamanda kitabları təbliğ etməkdən ibarətdir.

Keçirilən tədbirlər zamanı Qarabağa həsr olunmuş kitabları oxucuların diqqətinə çatdırmaq üçün sərgilərdən, kitab müzakirələrindən geniş istifadə etmək lazımdır. Belə kitablara misal olaraq «Respublika Xatirə Kitabı» nəşriyyatı tərəfindən nəşr olunmuş «Azərbaycan harayı» adlı kitabı göstərmək olar. Bu kitabda müxtəlif dövrlərdə Azərbaycan şairlərinin Qarabağla, Qarabağ nisgili ilə bağlı yazdıqları şeirlər və poemalar cəmlənmişdir. Bundan başqa Z.Sultanovun «Qarabağ müharibəsi: faktlar, hadisələr, düşüncələr», Əbülfət Mədətoğlu və Qasım Qasımlının «Zəhmli polkovnik», Hüseynbala Mirələmovun «Xəcalət», Fazil Güneyin «Qara Qan», Yusif Kərimovun «Qarabağ şikəstəsi», İlham Xudiyevin «Şuşadan Şəhidlər xiyabanına», Mirkamil Ağamirovun «Şuşa musiqi məktəbi», Xəliyyədin Xəlilinin «Qarabağ: Etnomənəvi inkişaf tarixi», Pərviz Axundbəylinin «Şuşa həsrəti», «Şuşa nəğmələri» adlı kitablarını nümunə göstərmək olar.

Kitabxanalarda həmçinin diyarşünaslıq bölməsi də fəaliyyət göstərməlidir. Hər bir kitabxananın **Diyarşünaslıq kataloqunda** «Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir» başlığı altında bölmə yaradılmalıdır. Oxuculara fondda olan Dağlıq Qarabağ haqqında respublika nəşriyyatlarının nümunələrini əks etdirən materiallar, ümumdünya nəşriyyatları tərəfindən buraxılan çap nümunələri haqqında məlumat vermək üçün tövsiyə ədəbiyyat siyahısı hazırlanmalıdır. Ümumiyyətlə, mövzuyla bağlı biblioqrafik materialların hazırlanması və oxucuların istifadəsinə verilməsi daha qabarıq olmalıdır. Dağlıq Qarabağın tarixi, mədəniyyəti, iqtisadiyyatı, kənd təsərrüfatı və s. sahələrin öyrənilməsinə oxucuların çox böyük ehtiyacı olduğunu nəzərə alıb kitabxanalarda diyarşünaslığa aid kataloqun ən məzmunlu və rəngarəng bölmələrindən biri Şuşaya həsr olunmalıdır. Burada «Şuşanın tarixi», «Şuşanın mədəniyyəti», «Bu qan

yerdə qalan deyil», «Şuşanın görkəmli yazıçı və şairləri», «Qarabağ xanlıqları», «Tariximiz, abidələrimiz, sərvətimiz», «Azərbaycanın təbii konservatoriyası- Şuşa», «Şuşa-Azərbaycanın mədəniyyət və tarix incisidir» və s. mövzulara aid ədəbiyyatı əks etdirən kartoçkalar yığıla bilər.

Oxucuların diyarşünaslıq biliyinin artırılması üçün Biblioqrafiya şöbəsi diyarşünaslıq məlumat aparatına əlavə olaraq «Musiqi beşiyimiz - Şuşa», «Şuşa bu gün», «Şuşa Qarabağ xanlığının paytaxtıdır», «Şuşanın milli qəhrəmanları», «Şuşanın dağları başı dumanlı», «Şuşasız 15 il» və s. başlıqlar altında kartotekalar təşkil edə bilər.

Kütləvi kitabxanaların və MKS-lərin Uşaq şöbələri tədbirlə əlaqədar kitabxanada sual-cavab gecələri hazırlaya bilərlər. Aşağıda bir nümunəni təqdim edirik:

- Şuşa haqqında nə bilirsiniz?
- XX əsrdə Şuşa neçə dəfə işğal olunub?
- İşğaldan əvvəl Şuşanın əhalisi nə qədər olub?
- Şuşanın memarlıq abidələrindən hansılarını tanıyırsınız və onlardan dünya əhəmiyyətli olanı hansıdır?
- İşğal nəticəsində nə qədər mədəniyyət və təhsil ocaqlarımız dağıdılmış və viran edilmişdir?
- Şuşa şəhəri neçənci ildə qoruq elan edilmişdir?
- Şuşa dünya musiqi mədəniyyəti xəzinəsinə kimləri bəxş etmişdir?
- Şuşanın bugünkü vəziyyəti haqqında nə bilirsiniz?

Şuşaya aid silsilə tədbirlər keçirərkən kitabxanalar internetin imkanlarından da istifadə etməlidirlər. Kompüterlə təchiz olunmuş və qlobal şəbəkəyə çıxışı olan kitabxanalarda mövzuya dair saytlardan istifadə etməklə oxuculara Şuşanın tarixi, işğaldan əvvəlki və sonrakı vəziyyəti, bu günü haqqında məlumat çatdıra bilərlər.

İşğalın ildönümü ilə bağlı oxuculara hadisələri əyani şəkildə çatdırmaq üçün kitab sərgilərindən istifadə

olunmalıdır. Tədbirlə əlaqədar hazırlanacaq sərginin təxmini planını nümunə olaraq göstəririk:




***Başlıq :   ŞUŞASIZ 15 İL***

- Sərgiyə münasib bir şəkil
- Düşmənin gülü solsun,
  Gözləri qanla dolsun

İgid silahlar ilə
Şuşamız azad olsun!


- İmanov V. Xəyanətin qurbanı olan Qala //Xalq qəzeti.- 2005.- 8 may.- S.10
- Məmmədova H.İ. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Yuxarı Qarabağda siyasi vəziyyət: Erməni terrorizminin güclənməsi (1918-1920).- B.: Nağıl evi, 2006.-150 s.
- Nəvvab M. M. 1905-1906-cı illərdə erməni-müsəlman davası.-B.: Azərbaycan, 1993.-128 s.
- Şuşinski F.Şuşa .- B.:Uşaqgəncnəşr, 1962.- 55s

* * *

- Садыхова Г.Н. История города Шуши (XIX-начало XX в.в.).-Б.: Нурлан, 2004.-166 с.
- Чингиз Гаджар. Старая Шуша.-Б.: Шарг-Гарб, 2007.-344 с.


## *II Bölmə Şuşanın Memarlıq Abidələri*


- Ağamirov M. Şuşa musiqi məktəbi.-B.:Şuşa.-2003.- 80s.
- Əfəndi R. Şuşa şəhərinin incəsənəti //Mədəni-maarif.- 2002.-№ 5.-S.10.
- Kərimov İ. Şuşa-Ağdam teatrı.- B.: Elm, 2001.-140 s.
- Rəhimova S. Şuşa muzeylər şəhəri idi //Bizim əsr.- 2002.- 8 may.- S.6.


## *III Bölmə Şuşa Qisas Gününü Gözləyir*

- ***Sitat:*** Haqq yolunda şəhid olanları ölmüş hesab etməyin, əksinə onlar öz Rəbbinin dərgahında diridirlər və əcrə yetişən sayılırlar.

«Qurani-Kərim» dən

- Axundbəyli P. Şuşa həsrəti.- B., 2005.- 460 s.
- Xudiyev İ. Şuşadan Şəhidlər xiyabanına.- B.: Bilik.- 1998.-64 s.
- İmanov V. Ay duman gəl, get bu dağlardan //Xalq qəzeti.-2006.-7 may.-S.5.
- Süleymanov M. Milli qəhrəmanlar.-B.: Azərnəşr, 1994.-228 s.

## V *Bölmə. Şuşa Bu Gün*

- **Məluma**t: Şuşanın əhalisi işğaldan əvvəl 26 min nəfər olubsa, hazırda 23 min nəfər, (5774 ailə) təşkil edir. Bunlar ölkəmizin 58 rayonuna səpələnmişlər ki, 15 min nəfər (3600 ailə) Bakıda, 6 min (146 ailə) isə Sumqayıt şəhərində məskunlaşmışdır və artıq 15 ildir ki, ağır qaçqınlıq ömrünü yaşayırlar.

- Əkbərov E. Həsrətin mütləq sonu olacaq// Azərbaycan.-2005.- 8 may.- S.7.
- Şuşa şəhərinə həsr edilmiş konfrans və sərginin materialları 7 may 2005-ci il.- B., 2006.- 59 s.
- Tapdıqoğlu N. Qarabağın tacı Şuşam.- B., 2003.- 75 s.

Sərginin sonunda (yaxşı olar ki, zərf yerləşdirilsin) mövzuya aid tövsiyə ədəbiyyat siyahısı verilməlidir.

## *ƏDƏBİYYAT SİYAHISI*
## *KİTABLAR*


Ağamirov M.Şuşa musiqi məktəbi.- B.: Şuşa, 2003.- 79 s.

Axundbəyli P.Şuşa həsrəti.- B.: Azərnəşr, 2005.- 460 s.

Azərbaycanın tarixi abidələri.- B.: Elm,1958.-107 s.

Abbas H. Şuşa həsrəti, türk həqiqəti: (İl və yol qeydləri).- B., 1993.-168 s.

Fətullayev Ş. Şuşa abidələri.- B.: Gənclik,1978.- 8 s.

Xəlili X. Qarabağ: Etnomənəvi inkişaf tarixi.- B.: Günəş, 2006.- 79 s.

Xudiyev İ. Şuşadan Şəhidlər xiyabanına.- B.: Azərbaycan «Bilik» maarifçilik «bayatı sifariş» mərkəzi,1998.- 64 s.

Kərimov İ. Şuşa – Ağdam teatrı.- B.: Elm, 2001.-139 s.

Kərimli K. Ürəyimin şüşəsi Şuşa.- B.: Azərbaycan ,1993.- 79s.

Qarabağlı L. Şuşa və Hindistan xatirələrim.- B.: Azərbaycan, 1996.- 88 s.

Quliyev V. Ucalığa gedən yol.- B.: Gənclik, 1988.- 88 s.

Quliyev V. Əgər şuşalısansa: Oçerklər.- B.: Azərbaycan, 1996.-184 s.

Məmmədova H. İ. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Yuxarı Qarabağda siyasi vəziyyət: Erməni terrorizminin güclənməsi (1918-1920).- B.: Nağıl evi, 2006.-150 s.

Məmmədzadə K. M., Sərkisov N. A. Şuşa-Vaqifin türbəsi.- B., 1986.- 125 s.

Müharibə və tarix mədəniyyət abidələrimiz.- B.: Heydər Əliyev Fondu, 2006.- 63 s.

Nəvvab M. M. 1905-1906-cı illərdə erməni-müsəlman davası.-B.: Azərbaycan, 1983.-128 s.

Süleymanov M. Milli qəhrəmanlar.- B.: Azərnəşr, 1994.- 228 s.

Şuşa abidələri.- B.: Gənclik, 1970.-16 s.

Şuşa Azərbaycanın tarix və mədəniyyət incisidir: IV elmi konfransın materialları 31 may 2002-ci il.- 41 s.;5 may 2003-cü il.- 61 s.; 7 may 2004-cü il.-71 s.; 7 may 2005.- 86 s.;
Şuşinski F. Şuşa.-B.: Uşaqgəncnəşr,1962.-55 s.
Şuşa nəğmələri: 2 C-də.- B.:Şuşa, 2001.- I C.- 800 s.; II C. 801 s.
Şuşa (Pənahabad)-250 :Elmi-praktik konfransın tezisləri.- B., 2001.-16 s.
Şuşa şəhərinə həsr edilmiş konfrans və sərginin materialları 7 may 2005-ci il.- B., 2006.- 59 s.
Tapdıqoğlu N. Qarabağın tacı Şuşam.- B., 2003.- 203 s.

## *QƏZET VƏ JURNAL MƏQALƏLƏRİ*

Cəfərli R. Erməni xəyanəti //Azərbaycan.- 2005.- 8 may.- S. 7.
Əbülqasımov F. Bəşər mədəniyyətinin incisi: Şuşanın işğalından 9 il keçir //Azərbaycan.- 2001.- 8 may.- S. 4.
Əfəndi R. Şuşa şəhərinin incəsənəti //Mədəni-maarif.- 2002.- № 5.- S.10.
Əkbərov E. Həsrətin mütləq sonu olacaq//Azərbaycan.-2005.- 8 may.- S. 7.
Əlizadə Ş. Şuşasız Azərbaycan yoxdur //Respublika.- 2005.- 8 may.-S. 7
Əsədov V. Qarabağın tarixini də qorumaq lazımdır //Xalq qəzeti.- 2005.- 23 noyabr.- S.5.
Heydər Əliyev və Şuşa //Paleolit.- 2006.- may.- S. 42-45.
İflas: Şuşanın işğalı ilə əlaqədar //Azərbaycan.- 2002.- 17 may.- S. 4.
İlyasov V. Şuşa kimi alınmaz Qala xəyanətin qurbanı oldu //Azərbaycan.- 2002.- 9 may.- S. 5.
İmanov V. Ay duman, gəl, get bu dağlardan //Xalq qəzeti.- 2006.- 7 may.- S. 5.
İmanov V. Xəyanətin qurbanı olan Qala //Xalq qəzeti.- 2005.- 8 may.- S. 10.

Quliyev V. Şuşada erməni-müsəlman davası: Qanlı qırğının 100 illiyi tamam olur //Xalq qəzeti.- 2006.- 19 iyul.- S. 7.
Quliyeva Z. Tarixi abidələrimiz dağıdılır //Azərbaycan.- 2002.-12 iyun.-S. 8.
Mehdixanlı T. Dağlar gözəli xəyanətin qurbanı oldu //Azərbaycan .- 2006.- 7 may.-S.5.
Mehdixanlı T. Dağlar gözəli yağıya qalıb //Azərbaycan .- 2002.- 8 may.- S. 7.
Mehdixanlı T. Həsrətin mütləq sonu olacaq//Azərbaycan.- 2005.- 8 may.- S. 7.
Rəhimova S. Şuşa muzeylər şəhəri idi //Bizim əsr.- 2002.- 8 may.- S. 6.

## *RUS DİLİNDƏ ƏDƏBİYYAT*
## *KİTABLAR*

Чингиз Гаджар. Старая Шуша.-Б.: Шарг-Гарб, 2007.-344 с.
Мамедзаде К.М. Шуша мавзолей Вагифа.- Б., 1987.- 126 с.
Садыхова Г.Н. История города Шуши (XIX-начало XX в.в.).- Б.: Нурлан, 2004.-166 с.
Эйвазов Б.А. Курорт Шуша.-Б.: Азернешр, 1956.- 48 с.

## *QƏZET VƏ JURNAL MƏQALƏLƏRİ*

Заявление Милли Меджлиса Азербайджанской Республики в связи с 13-й годовщиной оккупации вооруженными силами Армении города Шуши Азербайджанской Республики //Бакинский рабочий.- 2005.- 7 мая.- С. 2
Алекперов Э. 9 мая Шуша еще не была оккупирована //Эхо.-2002.-31 мая.-С. 1-4.
Алекперов З. «Захват Шуши был спланирован в Москве» заявил свидетель на вчерашнем судебном заседании по делу Рагима Газиева //Эхо.- 2002.- 4 сентября.- С. 4.
Баннаева Н. 10 лет без Шуши //Эхо.- 2002.-11 мая.- С.11.

Джаббаров З. День победы над фашизмом и день оккупации Шуши //Бакинский рабочий.- 2006.- 9 мая.- С. 8.
Джафаров У. Шуша и Лачин. Как это было?//Эхо- плюс.- 2003.- 9 мая.- С. 1-6.
Мамедов М. Справедливость восторжествует //Бакинский рабочий.- 2004.-7 мая.- С. 3 .
Рзаев С. Карабахцы отметили 11-летнию годовщину падения Шуши //Эхо- плюс.- 2003.- 9 мая.- С. 2.
Сафарова З. Шуша- музыкальная столица Азербайджана //İrs.- 2005.- №2-3 (14-15).- С. 86-89.

## *İNTERNETDƏ*

http://www.gateway.az

http://tr.wikipedia.org/

http://az.wikipedia.org

http://www.musigi-dunya.az

http://bizimki.org

http://www.azadqarabag.azerall.

http://www.azmaison.

http://www.xalqqazeti.com

http://karabakh.bravepages.com/az

http://shusha.az.net.orq

http://shusha.iatp.az

## *MÜNDƏRİCAT*

**ŞUŞA HƏSRƏTİ…………………………………………...……………………**
**6**

**ŞUŞA AZƏRBAYCANIN TARİX VƏ MƏDƏNİYYƏT**
**İNCİSİDİR………………………………………………………………..…**
**13**

**ŞUŞA BU GÜN DƏ YAŞAYIR……………………………………….……..**
**19**

**ƏSAS TARİXİ**
**HADİSƏLƏR…………………………………………..…………….…………..**
**22**

**ŞUŞA HAQQINDA DEYİLƏNLƏR ……………………………….………**
**24**

**ŞUŞANIN İŞĞALININ 15-Cİ İLDÖNÜMÜ İlə ƏLAQƏDAR**
**KİTABXANALARDA HƏYATA KEÇİRİLƏN**
**TƏDBİRLƏR…………………………………………………….………..…**
**28**

**ƏDƏBİYYAT SİYAHISI…………………………..…………..………**
34

*Şuşa Həsrəti*

*Nəşriyyat redaktoru:* *T.Ağamirova*

*Korrektorlar:* *Ş.Əhmədova*
*S.Əlisgəndərova*

*Kompüter dizaynı:* *A.Qəmbərova*

**Ünvan: AZ-1000 Bakı ş., Xaqani küç.29**
**E-mail: anl @ aznet. org**

**M.F.Axundov adına Azərbaycan**
**Milli Kitabxanasının mətbəəsində**
**ofset üsulu ilə çap olunmuşdur.**
**Sifariş**
**Çapa imzalanmışdır:**
**Tirajı:**
**Pulsuz**